# Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü üzrə Komissiya

30 iyun 2006-cı il tarixdə başa çatan 6 ay üzrə
**Müstəqil Mühasiblərin Rəyi**

**AZƏRBAYCAN RESPUBLIKASININ MINERAL EHTIYATLARININ HASILATI ILƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRINDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMISSIYA**

## MÜNDƏRİCAT


| | **Səhifə** |
|---|---|
| MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ | 1-4 |
| ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLIKASININ MINERAL EHTIYATLARININ HASILATI ILƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRINDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMISSIYANINBƏYANNAMƏSİ | 5 |
| ƏLAVƏ 2. AZƏRBAYCAN RESPUBLİKASINDA MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNUN TƏRƏFİ OLAN VƏ TƏRƏFİ OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI | 6 |
| ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNUN TƏRƏFİ OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI | 7-8 |

Deloitte & Touche MMC
4-cü mərtəbə
Ləndmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: + 994 (0) 12 598 2970
Faks: + 994 (0) 12 598 2975
www.deloitte.az

**MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ**

Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı
ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyaya:

Biz, MHŞT üzrə Komissiyanın (bundan sonra "Komissiya") Bəyannaməsinin (bax: Əlavə 1) yoxlanışını həyata keçirərək müəyyən etdik ki, 2006-cı il iyunun 30-da başa çatan 6 ay ərzində Azərbaycan Respublikası hökumətinin (bundan sonra "Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən (bundan sonra "Şirkətlər") aldığı ödənişlərin/daxilolmaların cədvəli MHŞT üzrə Komissiya, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax: Əlavə 2) və qeyri-hökumət təşkilatları (bax: Əlavə 3) arasında 2004-cü il noyabrın 24-də imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır. Komissiya bəyannaməyə görə cavabdehdir. Biz apardığımız yoxlama əsasında Bəyannaməyə verdiyimiz rəyə görə məsuliyyət daşıyırıq.

Növbəti paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamamızı "Əminlik Yoxlamaları Üzrə Beynəlxalq Standarta" uyğun olaraq həyata keçirdik və müvafiq olaraq Komissiyanın Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlanışını və müəyyən hallarda zəruri hesab etdiyimiz bu növ digər prosedurları yerinə yetirdik. Hesab edirik ki, apardığımız yoxlama nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

Komissiyanın Bəyannaməsini yoxlamaq üçün əldə etdiyimiz məlumatlar AM-nin tərəfi olan Şirkətlərin təqdim etdiyi yazılı məlumatlardan və Şirkətlərin Hökumətə etdiyi bütün ödənişlərə/daxilolmalara dair Komissiyanın təqdim etdiyi təfsilatlı məlumatlardan ibarət olmuşdur. Yoxlamamız hökumətin aldığı bütün ödənişlərin/daxilolmaların və Şirkətlərin etdiyi bütün ödənişlərin/daxilolmaların yoxlanışını əhatə etməyib. Əgər Şirkətlər tərəfindən ödənişlər/daxilolmalar həyata keçirilibsə, lakin həm Hökumətin, həm də Şirkətlərin təqdim etdiyi sənədlərdə bu öz əksini tapmayıbsa, bizim apardığımız yoxlama onların aşkara çıxarılması üçün yetərli olmaz.

**İcra olunmuş işlərin icmalı**

Komissiyanın Bəyannaməsini (Əlavə 1) yoxlamaq üçün biz, 30 iyun 2006-cı il tarixdə başa çatan 6 ay ərzində Hökumətin aldığı ödənişlər/daxilolmalar cədvəlini (bundan sonra "Hökumətin cədvəli") adları 2 saylı Əlavədə qeyd olunmuş (AM-yə tərəf olan) Şirkətlərin hazırladığı cədvəllər ilə (bundan sonra "Şirkətlərin cədvəli") müqayisə etdik. Yuxarıda qeyd olunan cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək məqsədilə vəziyyətin tələb etdiyi zəruri prosedurları həyata keçirdik. Əldə etdiyimiz nəticələr aşağıda təqdim olunmuşdur.

Deloitte.

## Mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin hasil etdiyi məhsulda dövlətin payı

### *Xam neft*

| | |
|---|---|
| Hökumətin cədvəli | 8.78 milyon barel |
| Şirkətlərin cədvəli | 8.65 milyon barel |

Komissiya tərəfindən ilk olaraq 2006-cı il oktyabrın 31-də bizə təqdim olunan Hökumətin cədvəlinə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) "Bakı-Tbilisi-Ceyhan Boru Kəməri" şirkətinə ("BTC şirkəti") BTC boru kəmərinin doldurulmasında hökumətin payı kimi nəql etdiyi 1.37 milyon barel neftin həcmi barədə məlumat daxil edilməmişdir. ABƏŞ və BTC şirkəti Hökumətə bu barədə hesabatı 2006-cı il oktyabrın 31-dək təqdim etmədiyi üçün Hökumət ilkin hesabatında bu rəqəmi göstərməmişdir. 2006-cı il dekabrın 7-də BTC şirkəti bu məbləğ barədə hesabatı rəsmi şəkildə Komissiyaya təqdim etmiş və Komissiyanın 2006-cı il dekabrın 11-də bizə təqdim etdiyi və həmin rəqəmin də daxil edildiyi yekun cədvəldə bu neftin həcmi Hökumət tərəfindən alınmış daxilolmaların bir hissəsi kimi göstərilmişdir.

Şirkətlərin cədvəlinə daxil edilməyən 0.13 milyon barel neft hasilat sənayesində fəaliyyət göstərən və AM-nin tərəfi olan bir şirkətin haqqında məlumat təqdim etmədiyi ödənişdir. Biz ABƏŞ-dən və BTC şirkətindən əlavə əsaslandırılmış sənədlər aldıqdan sonra bu fərqi təsdiq etdik. Şirkət bu rəqəmin AM-nin tələblərinə əsasən haqqında məlumat verilməli maddə olduğunu bilmədiyindən onu öz hesabatında qeyd etməmişdir.

### *Qaz*

| | |
|---|---|
| Hökumətin cədvəli | 1,408,371 min kub metr |
| Şirkətlərin cədvəli | 1,414,390 min kub metr |

AM_nin tərəfi olan bir xarici hasilat şirkətinin hasil etdiyi 20,245 min kub metr həcmində qaz Şirkətlərin cədvəlinə səhvən Hökumətə ödəniş kimi daxil edilmişdir. Bu şirkət tərəfindən hökumətə verilmiş qazın faktiki həcmi 7,034 min kub metr olmuşdur. Biz bu fərqi ARDNŞ-dən və sözügedən şirkətdən əlavə əsaslandırılmış sənədlər və izahat aldıqdan sonra təsdiq etdik.

Hökumətin cədvəlinə Şirkətlərin cədvəlində olduğundan 5,250 min kub metr artıq qaz barədə məlumat daxil edilmişdir. Bu AM-nin tərəfi olan bir hasilat şirkəti tərəfindən alınmış qazın həcminin ölçülməsində yaranan fərq ilə bağlıdır. Biz bu fərqi ARDNŞ-dən və sözügedən şirkətdən əlavə əsaslandırılmış sənədlər və izahat almaqla təsdiq etdik.

Şirkətlərin cədvəlinə AM-nin tərəfi olan bir xarici hasilat şirkəti tərəfindən Hökumətə verilmiş 1,942 min kub metr həcmində qaz barədə məlumat daxil edilməmişdir. Bu şirkət həmin rəqəm barədə məlumatın AM-nin tələblərinə əsasən təqdim edilməli olduğunu bilmədiyi üçün bu barədə hesabat verməmişdir. Biz bu fərqi ARDNŞ-dən və hasilat sənayesində çalışan həmin şirkətdən əlavə əsaslandırıcı sənədlər və izahat aldıqdan sonra təsdiq etdik.

Deloitte.

**Hökumətə mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərdən digər daxilolmalar**

***Nəqletmə rüsumları***

| | |
|---|---|
| Hökumətin cədvəli | 7.9 mln. ABŞ dolları |
| Şirkətlərin cədvəli | 6.9 mln. ABŞ dolları |

Hökumətin cədvəlinə daxil edilmiş 1 mln. ABŞ dolları həcmində vəsait barədə məlumat Hökumətin payına düşən neftin ötürülməsi üçün Hökumət tərəfindən ödənilmiş nəqletmə haqlarını əks etdirir. Biz ABƏŞ-dən əsaslandırılmış sənədlər aldıqdan sonra Hökumətə ayrılmış ümumi vəsaitin məbləğini təsdiq etdik.

***Mənfəət vergisi***

| | |
|---|---|
| Hökumətin cədvəli | 213.0 mln AZN |
| Şirkətlərin cədvəli | 201.8 mln AZN |

Şirkətlərin cədvəlinə daxil edilməyən 11.6 mln. AZN bir xarici hasilat şirkəti tərəfindən ödənilmiş, lakin təqdim etdiyi hesabata daxil etmədiyi mənfəət vergisinin məbləğini əks etdirir. Biz hasilat sənayesində çalışan bu xarici şirkətdən əsaslandırıcı sənədlər aldıqdan sonra bu məbləği təsdiq etdik.

0.4 mln AZN bir xarici hasilat şirkəti tərəfindən AM çərçivəsində təqdim edilmiş, lakin texniki səhvlər üzündən yanlış göstərilmiş məbləği əks etdirir. Biz bu xarici hasilat şirkətindən mənfəət vergisi ilə bağlı ödəniş sənədlərini əldə edərək yoxladıqdan sonra  düzgün məbləği təsdiq etdik.

**Mineral ehtiyatların hasilatı sənayesində çalışan yerli şirkətlərin hasil etdiyi məhsulda dövlətin payı**

***Qaz***

| | |
|---|---|
| Hökumətin cədvəli | 3,460 min kub metr |
| Şirkətlərin cədvəli | 4,000 min kub metr |

540 min kub metr həcmində qaz hasilat sahəsində çalışan bir yerli şirkətin kommersiya şərtlərinə əsasən verdiyi və hesabata daxil edilməsi AM çərçivəsində nəzərdə tutulmayan qaz payını əks etdirir və bu barədə məlumat səhvən Şirkətlərin cədvəlinə daxil edilmişdir. Biz bu fərqi ARDNŞ-dən və bu yerli hasilat şirkətindən əlavə əsaslandırıcı sənədlər və izahatlar aldıqdan sonra təsdiq etdik.

**Yerli şirkətlərdən hökumətə digər daxilolmalar**

***Mənfəət vergisi***

| | |
|---|---|
| Hökumətin cədvəli | 11.6 mln AZN |
| Şirkətlərin cədvəli | 12.7 mln AZN |

Hasilat sənayesində çalışan iki yerli şirkətin ödədiyi mənfəət vergisinə dair məlumatlar MHŞT üzrə hesabat mərhələsinə daxil olmayan dövrü əhatə etdiyindən 1.1 mln AZN məbləğində fərq yaranmışdır. Biz bu fərqi həmin iki yerli hasilat şirkətindən bank çıxarışlarını alıb yoxladıqdan sonra təsdiq etdik.

Deloitte.

***Digər vergilər***

| | |
|---|---|
| Hökumətin cədvəli | 136.1 mln AZN |
| Şirkətlərin cədvəli | 135.8 mln AZN |

Hökumətin cədvəlinə 0.3 mln AZN məbləğində digər vergilər daxildir ki, bu da bir yerli hasilat şirkəti tərəfindən ödənilmiş və AM çərçivəsində hesabata daxil edilməli olan, lakin edilməmiş dividend vergisini əks etdirir. Biz bu fərqi həmin yerli hasilat şirkətindən ödəniş sənədlərini alıb yoxladıqdan sonra təsdiq etdik.

**Rəy**

Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/daxilolmaların və Hökumət tərəfindən qəbul edilmiş bütün ödənişlərin/daxilolmaların yoxlanışını apardığımız zaman edilməsi zəruri olan hər hansı mümkün düzəlişlər (əgər olmuşsa) istisna olmaqla, bu hesabatda öz əksini tapmış yoxlamamıza əsaslanaraq verdiyimiz rəy belədir: 30 iyun 2006-cı il tarixdə bitən 6 ay ərzində qəbul olunmuş ödənişlərin/daxilolmaların cədvəli ilə bağlı Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyanın Bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmış və bütün əhəmiyyətli hallarda düzgün əks olunmuşdur.

Bu hesabat AM-ni imzalayan tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur və digərləri tərəfindən və AM-də qeyd olunmayan məqsədlər üçün istifadə edilməməlidir.

Deloitte & Touche.

14 dekabr 2006-cı il

## ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARININ HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMİSSİYASININ BƏYANNAMƏSİ

2006-cı il iyunun 30-da başa çatan 6 ay ərzində Azərbaycan Respublikası hökumətinin (bundan sonra "Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən (bundan sonra "Şirkətlər") aldığı ödənişlərin/daxilolmaların cədvəli MHŞT üzrə Komissiya, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax: Əlavə 2) və qeyri-hökumət təşkilatları (bax: Əlavə 3) arasında 2004-cü il noyabrın 24-də imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır.



MHŞT Komissiyasının Sədri

## ƏLAVƏ 2. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARININ HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNUN TƏRƏFİ OLAN VƏ TƏRƏFİ OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI

**Anlaşma Memorandumunun tərəfi olan şirkətlər**

1. BP Eksploreyşn (Kaspian Sea) Limited,
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("ARDNŞ"),
3. Total E&P Azərbaycan B.V,
4. ITOÇU Oyl Eksploreyşn (Azərbaycan) Inc.,
5. Statoyl,
6. Turkish Petroleum A.O.,
7. Komonvels Neft və Qaz,
8. Ekson Azərbaycan Limited,
9. KonokoFilips,
10. Amerada Hess (ACG) Limited,
11. Devon Enerci Kaspian Korporeyşn,
12. Lukoyl Oversiz,
13. Şenqli Oyl,
14. Salyan Oyl Limited,
15. Karasu Əməliyyat Şirkəti,
16. Şell Azərbaycan Eksploreyşn ənd Prodakşn,
17. Middle East Petroleum,
18. Anşad Petrol BM,
19. Şirvan Oyl BM,
20. Azgerneft BM,
21. İnpeks,
22. Şevron Oversiz Petroleum Azərbaycan Limited
23. Binəqədi oyl əməliyyat şirkəti
24. Royal Association of Finance Investors (RAFI OIL FZE)

**Anlaşma Memorandumunun tərəfi olmayan şirkətlər**

1. Bakı-Tbilisi-Ceyhan Boru kəməri şirkəti
2. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ")[1]

[1] ABƏŞ AÇG yatağında əməliyyat aparan şirkətdir. ABƏŞ-in partnyorları BP Eksploreyşn (Kaspian Sea) Limited, Ekson Azərbaycan Limited, Statoyl, İnpeks, ARDNŞ, Devon Enerci Kaspian Korporeyşn, İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnc, Amerada Hess (AÇG) Limited, Turkish Petroleum A.O, Unokal Xəzərdir (Şevron Oversiz Petroleum Azərbaycan Limited).

## ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNUN TƏRƏFİ OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ SİYAHISI

1. Avrasiya Hüquqşünaslar Assosiasiyası
2. Demokratiya və Qadın Tədqiqatları Mərkəzi
3. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi
4. İqtisadi və Sosial İnkişaf Mərkəzi
5. Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Milli Qrupu
6. Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti
7. Demokratik Seçkilərə Dəstək Mərkəzi İctimai Birliyi
8. Sosial İqtisadi Araşdırmalar Birliyi
9. Elmi- Texniki Tərəqqi və Təhsil Fondu
10. Beynəlxalq Eko-energetika Akademiyası
11. Demokratik Dəyərləri Müdafiə Fondu
12. İctimai Maliyə Monitorinq Mərkəzi
13. Vətəndaş Təşəbbüsləri Mərkəzi
14. Demokratik İslahatlar Uğrunda Cəmiyyət
15. Multimediya İnformasiya və Texnologiya mərkəzi
16. Humanitar Tədqiqatlar Cəmiyyəti
17. Mina Qurbanları Cəmiyyəti
18. Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq
19. Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyi
20. Demokratiyanın İnkişafı və Hüquqi Yardım Mərkəzi
21. Transnəqliyyatın (nəqliyyatın) Kompleks Problemləri İnstitutu
22. Azad İstehlakçılar Birliyi
23. Aqroeko Konsaltinq Mərkəzi
24. «Proqres» İctimai Birliyi
25. Azərbaycan İnşaat Assosiasiyası
26. Yaşıllar Hərəkatı
27. Qadınlar arasında həmrəylik
28. Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyi
29. Sosial- İqtisadi Hüquqlar üzrə Təlim- Monitorinq Mərkəzi
30. İqtisadi Tədqiqatlar Mərkəzi
31. «Buta» Humanitar Uşaq Fondu
32. Ekoleks təşkilatı
33. Yerin dostları/Azərbaycan
34. «Ümid» Humanitar və Sosial Dayaq Mərkəzi
35. Gənc Hüquqşünaslar Birliyi
36. «Xilaskar» İctimai Birliyi
37. «Finance» Şəffaf Büdcə İctimai Birliyi
38. Azad İqtisadiyyat Mərkəzi
39. «İnam» Plüralizm Mərkəzi
40. İqtisadi Texnologiyalar İnstitutu
41. «Free Person» Insan Hüquqlarının Müdafiə Cəmiyyəti
42. Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi
43. Demokratik Təşəbbüslərə Dəstək Mərkəzi
44. İnsan Hüquqları ve Qanunçuluğun Müdafiəsi Burosu
45. Demokratik Seçkilərə Yardım Mərkəzi
46. Demokratik İslahatlar Mərkəzi
47. «Əks- səda» Beynəlxalq Jurnalist Tədqiqatları Mərkəzi
48. «Ekspert» eкonomik jurnalı
49. «Bilik» Gəncə
50. «İnkişaf» Gənclərə Hüquqi Yardım İctimai Birliyi
51. Vətəndaşların əmək hüquqlarını müdafiə liqası
52. Demokratiya və Qadın Hüquqlarının Himayə Mərkəzi
53. «Ruzgar» Ekoloji İctimai Birliyi
54. «İnsan Haqqları-2003» İctimai Birliyi
55. «Qadın Dünyası» İctimai Birliyi

56. Gəncə Uşaq Fondu
57. Konstitusiya Fondu
58. Demokratik İslahatlar Uğrunda Cəmiyyət
59. Qafqaz Media Tədqiqatlar Mərkəzi
60. Tacirlər və İstehsalçılar Birliyi
61. Hüquq Təşəbbüsü Fondu
62. Xəzər Universiteti nəzdində Biznes Araşdırmalar Mərkəzi
63. «Himayədar»
64. Crude Accountability
65. Mediada Vətəndaş Hüquqlarının Müdafiəsi Fondu
66. «Elektron Seçki» İctimai Birliyi
67. İqtisadi İnnovasiya Mərkəzi
68. HVA Regional bölgəsi (Gəncə)
69. Vətəndaş Cəmiyyəti Quruculuğuna Yardım Mərkəzi (Regional QHT Ağstafa rayonu)
70. Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi
71. Azərbaycan Ekoloji Standartların Monitorinqi Mərkəzi
72. Sülh və Demokratiya İnstitutu
73. Eko-aləm İctimai Birliyi
74. İnsan Hüquqları XXİ əsr-Azərbaycan Fondu
75. Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi